# YERLİ BİTKİ GENEFONDUNUN QORUNMASI VƏ ƏHƏMİYYƏTİ

**Çimnaz Namazova**

*AR ETN Genetik Ehtiyatlar İnstitutu, Bakı*
*namazovachimnaz@gmail.com*

İnsanların sağlamlıq durumunun aşağı səviyyədə olduğu bir vaxtda ərzaq məhsullarının kəmiyyətcə qənaətbəxş olması ilə yanaşı, həm də keyfiyyətcə yüksək səviyyədə, ekoloji təmiz və müasir tələblərə tam cavab verə biləcək səviyyədə olması vacib hesab olunur. Məlumdur ki, ölkə əhalisinin tələbatını yerli məhsullar hesabına tam ödəmək hələlik mümkün deyil. Məşğul olduğumuz sahə bostan bitkiləri olan *Cucurbitaceae* (qarpız, yemiş, balqabaq) tropik, həm də subtropik ərazilərdə yayılmışdır. Yer kürəsinin hər tərəfində becərilən bostan bitkilərinin, o cümlədən yemişin ilk dəfə mədəniləşdirilməsi Azərbaycanda qeydə alınmışdır. Dünya mədəniyyətinin inkişaf tarixində Azərbaycan başqa sahələrdə olduğu kimi, bostançılıq sahəsində də özünəməxsus yer tutur.

Bu gün iqtisadiyyatın əsasınl təşkil edən yerli kənd təsərrüfatı bitkiləri istehsalının artırılması xarici ölkələrdən idxal olunan keyfiyyətsiz meyvə-tərəvəz və bostan bitkilərinin ölkəyə daşınmasının müəyyən qədər qarşısını alır.

Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının artırılması həm biomüxtəlifliyin qorunmasına, həm də xarici mühitin əlverişsiz amillərinə, xəstəlik və zərərvericilərə qarşı davamlı yeni, yüksək məhsuldar sortların yaranmasına səbəb olur.

Məşğul olduğumuz bostan bitkiləri sahəsi daxili tələbatdan aşağı səviyyədə istehsal olunur. Bu səbədən xarici ölkələrdən introduksiya olunmuş və genotipində dəyişikliklər aparılmış bostan bitkilərinin hesabına yerli məhsullar sıxışdırılıb aradan çıxarılır, bu isə öz növbəsində əhalinin sağlamlığına ciddi zərbə vurur və genefondumuzun cırlaşmasına səbəb olur. Bu proseslərin qarşısını almaq üçün floramızda becərilən bir sıra qiymətli sortlar, növlər, sort-formalar bərpa olunaraq öz ekosisteminə qaytarılır. Yerli sortlar uzunmüddətli təbii və süni seçmənin nəticəsi olduğundan, onların seleksiya prosesinə cəlb edilməsi başlanğıc formalarda bir sıra əhəmiyyətli əlamət və keyfiyyətlərin əmələ gəlməsinə səbəb olur.

Respublikanın müxtəlif bölgələrindən əldə olunmuş, zəngin gen mənbəyinə malik olan nümunələr üzərində tədqiqat işləri davam edir. Yemişin Qara sineyvaz, Aytorlu, Şəmi, Qalmaş, Ala qovun, Turacı, Dostucan, Bozşirin, Corat yemişi, Saray yemişi, Peyhani və s. sort və sort-formaları bərpa olunaraq Genbanka daxil edilmişdir.

Böyük alim-həkim İbn Sina öz əlyazmalarında yemişin bir çox xəstəliklərin müalicəsində əvəzolunmaz vasitə olduğunu qeyd etmişdir. Yemişin meyvəsində zülal, sellüloza, yağ, su, quru maddə, vitamin C, sink, dəmir, kalium, kalsium, maqnezium, fosfor, üzvi və mineral duzlar vardır.

İnsanların fizioloji tələbatları əsasən kənd təsərrüfatı bitkiləri hesabına ödənildiyindən, bu sahəyə xüsusi diqqət yetirilir. Yerli kənd təsərrüfatı bitkiləri iqtisadiyyatın həyati əhəmiyyət kəsb edən çox mühim sahəsidir. Statistikaya görə, qidalanma tərkibli bostan bitkiləri istehsalı 36,8 min ton və yaxud 8,6% təşkil edir. Ölkəmizdə iqtisadiyyatın inkişafındakı xüsusi yerini və əhalinin kənd təsərrüfatı bitkilərinə tələbatını nəzərə alaraq, bu ehtiyacların daha dolğun ödənilməsi üçün bu sahə intensiv əsaslarla inkişaf etdirilməlidir.